J-EDUCATion
JOURNAL OF EDUCATIONAL STUDIES
e-ISSN: 3023-8145
Eğitim Araştırmaları Dergisi

# The Role of Montessori Education in Child Development

[1]Kazımova Çimnaz

**Abstract:**

Preschool education has a great role in the development of children. Montessori school is one of the schools that has a great role in child development. The main purpose of the article is to explain the pedagogical features of Montessori education, the main principles of this education and its impact on child development. Maria Montessori, the founder of Montessori education, was an Italian physician, educator and innovator. The main features that distinguished her approach from other approaches were that the child learns by making mistakes independently and drawing conclusions from these mistakes, giving children freedom of choice, game-based learning, based on children's joint activity, and the teacher as a facilitator. Montessori noted that children have 4 stages of development. Each of these stages is described in detail in the article. Montessori training serves 3 main goals: motor training, affective training and language training. The principles of Montessori education are reflected in the article: respect for the child, absorbent mind, sensitive periods, comprehensive education, individualized learning, movement, freedom of choice, prepared learning environment, intrinsic motivation, and the principle of independence. Montessori education plays an important role in child development. Thus, this training forms independence and self-confidence in children, develops critical thinking skills in them, supports social skills and emotional development in children. In addition to developing creative thinking and imagination in children, it instills problem-solving skills and a love of learning at the same time. The Montessori method, which develops children's fine motor movements, also leads to language development in them.

**Keywords:** Montessori, Independent learning, Facilitator, Motor learning, Affective learning, Language learning.

---

# Montessori Təliminin Uşaq İnkişafında Rolu

**Öz:**

Uşaqların inkişafında məktəbəqədər təhsilin böyük rolu var. Uşaq inkişafında böyük xidmətlər

[1] Corresponding Author: Bakı Dövlət Universiteti, Azerbaijan, E-mail: kazimova.cimnaz7@gmail.com

göstərən məktəblərdən biri də Montessori məktəbidir. Məqalənin əsas məqsədi Montessori təhsilinin pedaqoji xüsusiyyətlərini, bu təhsilin əsas prinsiplərini və uşaq inkişafına təsirini izah etməkdir. Montessori yanaşmasını digər yanaşmalardan fərqləndirən əsas xüsusiyyətlər, uşağın səhv etmək və bu səhvlərdən nəticə çıxarmaqla müstəqil öyrənməsi, uşağa seçim azadlığı verməsi, uşaqların ümumi fəaliyyətinə əsaslanan oyun əsaslı öyrənmə, müəllimin fasilitator olmasıdır. Montessori uşaqların 4 inkişaf mərhələsinin olduğunu bildirdi. Bu mərhələlərin hər biri məqalədə ətraflı təsvir edilmişdir. Montessori təhsili 3 əsas məqsədə xidmət edir: motor təhsili, emosional təhsil və dil təhsili. Məqalədə Montessori təhsilinin prinsipləri öz əksini tapmışdır: uşağa hörmət, ağılla mənimsənilməsi, həssas dövrlər, hərtərəfli təhsil, fərdi öyrənmə, hərəkət, seçim azadlığı, hazırlanmış təlim mühiti, daxili motivasiya və müstəqillik prinsipi. Montessori təhsili uşaqlarda müstəqillik və özünə inam yaradır, tənqidi düşünmə bacarıqlarını inkişaf etdirir, uşaqlarda sosial bacarıqları və emosional inkişafı dəstəkləyir. Uşaqlarda yaradıcı təfəkkür və təxəyyül inkişaf etdirməklə yanaşı, problem həll etmə bacarıqlarını və öyrənmə sevgisini də aşılayır. Uşaqların incə motor hərəkətlərini təkmilləşdirən Montessori üsulu onlarda dil inkişafına da səbəb olur.

**Açar Sözlər:** Montessori, Müstəqil Öyrənmə, Fasilitator, Motor təlim, Affektiv təlim, Dil təlimi

***Article History***

***Article arrival:*** *21 Aıgust, 2023* ***Accept:*** *04 Nov..2023* ***Publish:*** *10.11.2023*
***Article type:*** *Research article*
***Article language:*** *Azerbaijan.*
***Citation:*** Çimnaz, K. (2023). Montessori təliminin uşaq inkişafında rolu *Journal of Educational Studies (J-EDUCAT).* 1(1), p.69-80.

# Montessori Təliminin Uşaq İnkişafında Rolu

## Giriş

Uşaqların inkişafında məktəbəqədər təhsilin böyük rolu var. Uşaq inkişafında böyük xidmətlər göstərən məktəblərdən biri də Montessori məktəbidir. Məqalənin əsas məqsədi Montessori təhsilinin pedaqoji xüsusiyyətlərini, bu təhsilin əsas prinsiplərini və uşaq inkişafına təsirini izah etməkdir.

## Montessori Təliminin Pedaqoji Xüsusiyyətləri

1896-cı il Roma Universiteti Tibb fakültəsinin ilk qadın məzunu olan Maria Montessori İtalyan həkim, pedaqoq və novator idi. O, uşaqların təbii şəkildə öyrənmə yoluna əsaslanan

təhsil metodu ilə məşhur olmuşdur. Montessori, 6 yanvar 1907-ci ildə Romada ilk Montessori məktəbini -Casa dei Bambini yaradır. Bunun ardınca, o dünyanı gəzir və təhsilə xüsusi yanaşması ilə bir çox insanları cəlb edir. Eyni zamanda təhsilə dair baxışlarını əks etdirən "The Montessori Method" kitabının müəllifi olan Maria Montessori qısa zaman ərzində bütün dünyada yeni metodu ilə məşhur olur. Hazırda dünyanın müxtəlif ölkələrində minlərlə Montessori məktəbi var.

Montessori özfəaliyyətə, praktiki öyrənməyə və birgə oyuna əsaslanan təhsil metodudur. Montessori siniflərində uşaqlar öyrənərkən yaradıcı seçimlər edir. Uşaqlar dünya haqqında bilikləri kəşf etmək və araşdırmaq və maksimum potensialını inkişaf etdirmək üçün qruplar və fərdi şəkildə işləyirlər. Yüksək təlim keçmiş müəllim isə prosesi istiqamətləndirmək üçün yaşa uyğun fəaliyyətlər təklif edərək bir növ fasilitatorluq edir. Müəllimlər yaxşı müşahidəçi olmalı və yalnız uşaq tələb etdikdə müdaxilə etməlidirlər.

Montessori mühitində uşaqlar araşdıraraq, səhvlər edərək və bu səhvlərdən nəticə çıxararaq öyrənirlər. Səhvlərindən nəticə çıxarması, səhvini dərk etməsi olduqca vacibdir. Əgər uşaq səhvini başa düşmürsə, bu onun həmin sahəni yaxşı dərk etmədiyini göstərir.

Montessori qeyd edir ki, uşaqlara müəyyən bir mühitdə müstəqil şəkildə öyrənməyə və öyrənmə materiallarını öz maraqlarına əsasən seçməyə imkan verilməlidir. Tədris mühiti yalnız obyektiv olaraq müəllim tərəfindən müəyyən edilir. Montessori mühitində materiallar sadədən mürəkəbə doğru seçilir.

Montessori sinif otaqları müəyyən yaş aralığında olan uşaqların ehtiyaclarını ödəmək üçün nəzərdə tutulmuş gözəl hazırlanmış mühitlərdir. Dr. Maria Montessori kəşf etdi ki, bu tip siniflərdə təcrübəyə əsaslanan öyrənmə dil, riyaziyyat, elm, musiqi və sosial əlaqələrin daha dərindən dərk edilməsinə səbəb olur.

J-EDUCATion
JOURNAL OF EDUCATIONAL STUDIES
e-ISSN: 3023-8145
Eğitim Araştırmaları Dergisi

Montessori sinifindəki hər bir material uşağın təbii maraqları ilə mövcud fəaliyyətlər arasında uyğunluq yaradaraq, uşağın inkişafının hər bir aspektini dəstəkləyir. Uşaqlar öz təcrübələri və öz sürətləri ilə öyrənə bilərlər.

Montessori uşaqların 4 inkişaf mərhələsi olduğunu qeyd edirdi:

1. 0-6 yaş arası mərhələ.
2. 6-12 yaş arası mərhələ
3. 12-18 yaş arası mərhələ
4. 18-24 yaş arası mərhələ

Montessori ilk mərhələni 3 dövrə ayırır

1. Birinci dövr: 0-6 yaş arası. Bu zaman endokrin hormonunun aktiv ifrazı və neyronların tez hərəkət etməsi nəticəsində Montessori bu mərhələni öyrənmənin ən intensiv olduğu mərhələ kimi görür. Əgər uşaq bu dövrdə lazım olan bilik və bacarıqları qazanmasa sonradan həmin bilikləri əldə etmək çətin olacaqdır.

2. İkinci dövr: 0-3 yaş arası. Bu dövr şüursuz mərhələ adlanır. Uşaq hərəkətə qarşı həssaslıq qazandıqca əl koordinasiyası, tarazlıq və yerimə kimi davranışlar inkişaf edir. Bədən koordinasiyası və eşitmə ilə yanaşı, dildə də inkişaf baş verir. Bu dövrdə uşağa mümkün qədər çox stimul vermək lazımdır.

3. Üçüncü dövr: 3-6 yaş arası. Bu dövr ətraf mühitdən gələn təəssüratlar təhlil edilir. Şüursuz dövrdən şüurlu dövrə keçilir. Əvvəllər qeyri-şüuri əldə edilən qazanclar yenilənir və inkişaf etdirilir. Bu dövrdə kollektivə qoşulmaqla sosial adaptasiyaya nail olmaq uşaq üçün çox vacibdir.

İkinci mərhələ 6-12 yaş aralığını əhatə edir. Bu dövr uşaqlar müstəqil şəkildə öyrənməyə meyilli olurlar. Uşaqların nitqində "Mən bunu özüm də düşünə bilərəm" ifadəsi tez-tez

müşahidə olunur.

Bu yaşda uşaqlar əxlaqi nizam axtarmağa başlayır və vicdanlarında doğru-yalan hissini inkişaf etdirirlər. Bu mərhələ onlara ədaləti və başqalarına necə kömək etməyi öyrətmək üçün yaxşı vaxtdır. Uşağın vicdanı yaxşı ilə pis, doğru ilə yanlış arasında fərq qoymağa başlayır. Uşaqda ədalət şüuru inkişaf edir.

Bu inkişaf mərhələsində uşaq böyük fiziki dəyişikliklərə məruz qalır, daha çox sosiallaşmağa başlayır və müstəqillik əldə etmək istəyir. Uşaq; Biliyini sosial, mədəni, mənəvi və dini baxımdan genişləndirmək arzusundadır. Uşaq beyni mücərrəd düşünməyə hazır olmağa başlayır. Davamlı olaraq "Niyə?" sualını verir.

Üçüncü mərhələ 12-18 yaş dövrüdür. Bu səviyyədə uşaqlar özünə önəm verməyə və özünüqiymətləndirməyə başlayır. Onlarda tənqidi düşüncə, mənəvi və sosial dəyərlər inkişaf edir. Fiziki dəyişikliklər rol oynayır, orqanizm yetkinləşir və sağlamlıq baxımından həssas bir dövrdür. Qərarsızlığa əsaslanır. Fiziki dəyişikliklərə görə yeniyetmələr qorunmaq və təhlükəsiz olmaq ehtiyacını hiss edirlər. Onlar həm emosional, həm də fiziki cəhətdən zəifdirlər. Bundan əlavə, sosial mühitdə müstəqil olmaq istəyi də yaranır.

Dördünci mərhələ 18-24 yaşı əhatə edir. Dördüncü inkişaf səviyyəsi gənc yetkinin öz mənəvi mənliyi üzərində işləməsi və ya daha yüksək səviyyədə özünü dərk etməsi ilə ifadə edilir. Bu monoton inkişaf mərhələsidir. Həyat daha sürətli keçməyə başlayır. Uşaq qarşısındakı imkanların fərqindədir.

Bu mərhələ maliyyə cəhətdən müstəqillik üçün güclü istək ilə xarakterizə olunur. Gənclərdə "Mən özüm ala bilərəm." fikri tez-tez müşahidə olunur.

Montessori yanaşması 3 əsas məqsədə xidmət edir. Bunlar motor təlimi, affektiv təlim və dil təlimidir.

*1. Motor təlimi:* Bu təlim geyinmə, soyunma, çimmək, əşya daşımaq, süpürmək, bitkilərə və ya ev heyvanlarına qulluq etmək kimi gündəlik praktiki bacarıqları əhatə edir. Montessori qeyd edir ki, uşağa nə edəcəyini şifahi şəkildə deyil, nümayiş etdirərək öyrətmək lazımdır. Gimnastika və ritmik məşqlər motor təhsilində fiziki koordinasiya və tarazlığın inkişafı üçün olduqca vacibdir. Montessoriyə görə gələcəkdə akademik öyrənmənin uğurlu alınması üçün uşaqda hərəki bacarıqları inkişaf etdirmək olduqca vacibdir.

*2. Affektiv təlim:* Montessori hisslərin inkişafı üçün öyrədici oyuncaq materiallar hazırlamışdı. Bu materiallar təqdim edilərkən, uşaq onlar arasındakı bir sıra fərqləri müəyyənləşdirməyə çalışır. Bu fərqlərə forma, rəng,uzunluq və digər xüsusiyyətlər aiddir. Affektiv təlim nəticəsində uşağın müqayisə , mühakimə etmək və sonda qərar vermək bacarıqları inkişaf edir.

*3. Dil təlimi:* Montessori vurğulayır ki, uşaq ətrafındakı hər cür səsləri dərk etməli və beləliklə, müxtəlif səslər arasındakı əlaqəni öyrənməlidir. Bu halda müəllimin aydın danışması olduqca vacibdir.

**Montessori Təliminin Prinsipləri**

Montessori təlimi 10 əsas prinsipə əsaslanır. İlk prinsip uşağa hörmət adlanır. Belə ki, Montessori fəlsəfəsi hər bir uşağın unikallığına, seçim etmək, öz səhvlərini düzəltmək, öz sürəti ilə işləmək azadlığına hörmət etməyi nəzərdə tutur. Montessori və onun davamçıları uşaqlarla dərin hörmət əsasında ünsiyyət qururdular.

İkinci prinsip absorbent ağıl kimi qeyd olunur. Maria Montessorinin tədqiqatları müəyyənləşdirmişdir ki, uşaq həyatının ilk 6 ili onun inkişafında ən mühüm rol oynayan dövrdür. O, bu mərhələni absorbent ağıl adlandırmışdır. Belə ki, həmin dövrdə uşaq ətraf-aləmlə bağlı məlumatları daha tez qavrayır. Bu müddət ərzində onlar öz mədəniyyətlərini,

dünyalarını dərk edərək sürətlə inkişaf edir, intellekt və şəxsiyyətlərinin əsasını qururlar.

Üçüncü prinsip sensitiv dövrlər adlanır. Maria Montessori müşahidə etmişdir ki, uşaqlar spesifik bilik sahələrini və öz qabiliyyətlərini öyrənməyə ən qadir olduqları zaman inkişaflarında xüsusi mərhələdən keçirlər. O, bu mərhələni sensitiv dövr adlandırır. Sensitiv dövrün xüsusiyyətlərinə aşağıdakılar aiddir: diqqət, təkrarlama, bir işə bağlılıq və uzun müddət konsentrasiya.

Dördüncü prinsip kimi Montessoti uşağa hərtərəfli təhsil verməyi nəzərdə tutur. Montessori təlimi hər bir uşağın intellektial, sosial, emosional və fiziki inkişafını təmin etməklə onun potensialını hərtərəfli artırmağa yönəlmişdir. Montessori Kurikulumu dil və riyaziyyatla yanaşı, praktik həyat və mədəniyyəti də əhatə edir. Uşaqların inkişafının bütün aspektləri bir-birinə bağlıdır və eyni dərəcədə vacib hesab olunur.

Beşinci prinsip individuallaşdırılmış öyrənmə hesab olunur. Montessori təlim proqramları hər bir uşağın fərdi inkişafına, maraqlarına və ehtiyaclarına uyğunlaşdırılmışdır. Montessori materialları ilə keçirilən dərslər hər bir uşağın akademik tərəqqisinə əsaslanaraq təkbətək təqdim olunur.

Altıncı prinsip hərəkət və seçim azadlığıdır. Maria Montessori müşahidə etmişdir ki, uşaqlar hərəkət etməkdə, seçim etməkdə və öz maraqlarının ardınca getməkdə azad olduqları zaman daha yaxşı öyrənir və yüksək nəticələr əldə edirlər. Montessori sinfində uşaqlar hazırlanmış mühitdə sərbəst hərəkət edə, ən yaxşı öyrənəcəklərini hiss etdikləri yerdə işləyə və praktiki təcrübə vasitəsilə öyrənmə nəticələrini kəşf edə bilərlər.

Yeddinci prinsip hazırlanmış öyrənmə mühiti adlanır. Montessori sinfi həm də hazırlanmış öyrənmə mühiti kimi tanınır. Bu diqqətlə hazırlanmış öyrənmə məkanında hər şeyin öz məqsədi və dəqiq yeri vardır. Bu məkanda uşaqlara məntiqi düşüncə proseslərini

inkişaf etdirməyə kömək edən fərqli bir nizam hissi var. Əsas ideya "mühitdə və ağılda nizam"dır. Bu məkanda uşaqlar öz maraqlarını izləməkdə, işlərini seçməkdə və öz templəri ilə irəliləməkdə sərbəstdirlər.

Səkkizinci prinsip daxili motivasiya adı ilə tanınır. Montessori yanaşması öyrənmənin özünün mükafat olduğunu düşünür. Montessori sinifində uşaqların öyrənmələrini mükafatlandırmaq üçün heç bir şey yoxdur. Bunun əvəzinə, uşaqlar bir işi tamamlamaqdan və öyrənməkdən müvəffəqiyyət hissi alırlar.

Doqquzuncu prinsip müstəqillikdir. Montessori müstəqillik təlimidir. O, uşaqlara sərbəst düşünmək, hərəkət etmək və öyrənmək üçün şərait, material və təlimatlar verir. O, uşaqları düzgün stimulla təmin olunduqda özlərini öyrətməyə qadir olan və anadangəlmə öyrənənlər kimi baxır. Montessori təhsilinin əsas məqsədi müstəqillikdir.

Sonuncu prinsip avtomatik təhsil adlanır. Montessori Metodunun əsas prinsiplərindən biri avtomatik təhsil anlayışıdır. Bu, uşaqların maraqlı öyrənmə stimulu ilə təmin olunarsa, özlərini öyrətməyə qadir və hazır olduqlarına inamına əsaslanır. Montessori materialları bu ehtiyacı ödəmək və uşaqları öz təhsillərini idarə etmək bacarığı ilə gücləndirmək üçün hazırlanmışdır. Montessori pedaqoqları uşaqların özlərini təhsil alması üçün hazırlanmış mühiti, rəhbərliyi və təşviqi təmin edirlər.

Digər bir yanaşmaya görə Montessori təlimi 8 əsas prinsipə əsaslanır:

1. Hərəkət və idrak bir-biri ilə sıx bağlıdır. Hərəkət düşüncə və öyrənməni inkişaf etdirir.

2. Öyrənmə insanlar öz həyatına nəzarət hissi keçirdikdə daha da yaxşılaşır.

3. İnsanlar maraq dairəsində olan məsələləri daha yaxşı qavrayırlar.

4. Uşaqları nailiyyət əldə edərkən mükafatlandırmaq düzgün deyildir. Sonra mükafat olmadıqda uşaqların fəaliyyətə qarşı motivasiyası aşağı düşür.

5. Birgə məşğuliyyətlər öyrənməyə müsbət təsir göstərir.

6. Mənalı kontekstləri öyrənmək mücərrəd kontekstləri öyrənməkdən daha daha faydalıdır.

7. Yetkinlərlə ünsiyyət və qarşılıqlı əlaqə uşaqların dünyagörüşünə müsbət təsir göstərir.

8. Mühitdə nizam qaydası uşaqlar üçün vacib rol oynayır.

**Montessori Təliminin Uşaq İnkişafına Təsiri**

Montessori təliminin uşaqların formalaşmasında əvəzsiz rolu vardır. Belə ki, bu yanaşma uşaqlarda müstəqillik və özünəinamı formalaşdırır. Montessori mühitində uşaqlar müstəqil şəkildə işləməyə təşviq olunurlar. Bu, onlara nailiyyətləri ilə əlaqədar olan qürur hissini inkişaf etdirməyə və daxili motivasiyalarının artmasına kömək edir.

Montessori metodu eyni zamanda uşaqların tənqidi düşünmə bacarığnı inkişaf etdirir. Montessori təlimi daha çox praktikaya əsaslanır və uşaqları ətraf-aləmi sorğulamağa və araşdırmağa təşviq edir. Bu isə onların tənqidi düşünmə bacarığının formalaşmasında əvəzsiz rol oynayır.

Uşaqların sosial bacarıqlarının formalaşmasında da Montessori təliminin rolu az deyildir. Montessori sinifində uşaqlar dəstəkləyici və tərbiyəvi mühitdə birlikdə işləyir və oynayırlar. Bu, onlara güclü sosial bacarıqlar və cəmiyyət hissini inkişaf etdirməyə kömək edir.

Montessori yanaşması uşaqların emosional inkişafını dəstəkləyir. Bu yanaşma uşaqlara öz emosiyalarını müəyyən etmək və anlamağa kömək edir. Zehinlilik məşqləri, sakit düşünmə və cəlbedici fəaliyyətlər vasitəsilə uşaqlar hisslərini sağlam şəkildə idarə etməyi öyrənirlər. Bu emosional şüur onlara empatiya və anlayışla sosial vəziyyətləri idarə etməyə kömək edir.

Uşaqların kreativ düşüncə tərzini və eyni zamanda təxəyyülünü artırmaqda Montessori təlimi mühüm rol oynayır. Montessori metodu bir çox cəhətdən yaradıcılığın inkişafına kömək

edir. Belə üsullardan biri hazırlanmış sinif mühitidir. Montessori sinfi gözəl, ahəngdar və nizamlıdır. Tələbələrə vizual cəlbedici öyrənmə məkanı təqdim etməklə yaradıcılığı inkişaf etdirir. Hazırlanmış mühitdə təcrübələr vasitəsilə uşaqlar müstəqilliklərini, konsentrasiyalarını və maraq duyğularını inkişaf etdirirlər. Bu təcrübələr uşağa öz hisslərini inkişaf etdirməyə və öz dünyasını daha dərindən dərk etməyə imkan verir. Digər tərəfdən, Montessori materialları uşaqlara praktiki təcrübə vasitəsilə mücərrəd anlayışları öyrətmək üçün nəzərdə tutulmuş sensor əsaslı təlim vasitələridir. Ən unikalı, hər bir materialın səhvin vizual nəzarəti ilə tərtib edilməsidir. Bu o deməkdir ki, uşaq asanlıqla öz səhvlərini görüb düzəldə bilər.

Montessori metodu uşaqlara öyrənmə sevgisini aşılayır. Uşaqlara öyrənmə sevgisini aşılamaq üçün ilk olaraq Montessori fərdi təlim metodundan istifadə edirdi. Uşaqlar hamısı fərqlidir. Bəzi uşaqlar daha çox inkişaf edir, bəziləri müəyyən sahələrdə mübarizə aparır və bir neçə uşaq bütün inkişaf sahələrində geri qaldıqları üçün çox əziyyət çəkirlər. Tələbələrə kömək etməyin ən təsirli yolu hər bir şagirdə fərdi yanaşmaq və onlara uğur qazanmalarına kömək etmək üçün əlavə imkanlar təqdim etməkdir. Eyni zamanda, Montessori hər bir uşağıa fərqli və özəl olduğunu inandırırdı. Uşaqlar öyrənmə problemi olduğunu öyrəndikdən sonra utancaq və qorxa bilərlər. Onlar digər şagirdlərdən fərqli olduqları üçün məktəbdə uğur qazanmaq üçün kifayət qədər yaxşı olmadıqlarını düşünərək özlərindən də şübhə edə bilərlər. Uşaqlara əmin etmək lazımdır ki, onların fərqləri onları unikal və xüsusi edir, bu da onlara özlərinə inamı inkişaf etdirməyə kömək edir.

Montessori yanaşması uşaqların incə motor hərəkətlərini inkişaf etdirir. Uşağın yazmağı öyrənmək üçün incə motor bacarıqları çox vacibdir. Maria Montessori həmçinin incə motorun inkişafının beynin inkişafı ilə birbaşa əlaqəli olduğunu vurğulayırdı. Bu fəaliyyətlər əllərdə və barmaqlarda kiçik əzələlərin istifadəsinə şərait yaradır, çevikliyi, əl-göz koordinasiyasını

yaxşılaşdırmağa kömək edir. İncə motor fəaliyyəti ilə məşğul olmaq həm də koqnitiv inkişafı təşviq edə və yaradıcılığı artıra bilər. İncə motor fəaliyyətinin bəzi nümunələrinə rəsm çəkmək, rəngləmək, qayçı ilə kəsmək, kiçik oyuncaqlarla oynamaq və kiçik əşyalarla işləmək daxildir. Bu fəaliyyətləri gündəlik iş rejiminə daxil etməklə, fərdlər incə motor bacarıqlarını təkmilləşdirə bilərlər.

Uşaqlarda problem həlli bacarıqlarının formalaşmasında Montessori təlimi mühüm rola malikdir. Montessorinin problem həllinə olan baxışı belədir - uşaqlar daima normal səviyyəli problem yaradan real həyat problemlərini müstəqil həll etmək imkanlarına sahib olmaqla problem həll etmə bacarıqlarını təkmilləşdirirlər. Problem çox asandırsa, darıxırlar; çox çətin olsa, məyus olur və təslim olurlar. Montessori uşaqlarda problem həlli bacarıqların inkişafı üçün müxtəlif növ  puzllelarıın istifadəsini məsləhət görürdü.

Montessori təlimi uşaqlarda dil inkişafını dəstəkləyir. Belə ki, Montessori uşaqlarda dil bacarıqlarını inkişaf etdirən bir sıra fəaliyyətlərdən istifadə edirdi.  Həmin fəaliyyətlər yaşa uyğun olaraq qruplaşdırılmışdı.  2 yaşa qədər uşaqlarda nitqi inkişaf etdirən “Qara və Ağ Kartlarla Vizual Stimulyasiya”, “ Səs kisələri”, 3-6 yaş arası uşaqlarda “Səslərin əşyalarla uyğunlaşdırılması”, “Lüğət kartları ilə yeni sözlərin öyrənilməsi” , “ Cümlə qurmağa kömək edən kartlar”, 6 yaşdan yuxarı uşaqlar üçün isə nitq hissələrini bir-birindən fərqləndirən xüsusi fəaliyyətlərdən istifadə edilirdi.

Beləliklə, öz unikal xüsusiyyətləri ilə digər metodlardan fərqlənən Montessori metodu müasir dövrümüzdə də dünyanın hər yerində bir çox dövlət və özəl məktəblərində istifadə olunur.

**Research and Publication Ethics**

In this study, all rules specified in the "Directive on Scientific Research and Publication

Ethics of Higher Education Institutions" were followed. None of the actions specified under the second section of the Directive, "Actions Contrary to Scientific Research and Publication Ethics", have been carried out.)

**Disclosure Statements**

1. Contribution rate statement of researchers: Author % 100.
2. No potential conflict of interest was reported by the author.

**İstifadə Ədilmiş Ədəbiyyat Siyahısı**


[1] Montessori, M. (1909). The Montessori Method. New York: “Frederick A.Stokes Company”, pg. 272.

[2] Guttenberg, P. (2008). Spontaneous Activity in Education Maria Montessori. New York: “Frederick A.Stokes Company”,pg. 352.

[3] Lillard, P.P.(2013). Montessori: Modern Bir Yaklaşım. İstanbul: “ Kaknüs ‘yayınları”, s. 237.

[4] Köroğlu, İ.S.(2023). Evdə və Məktəbdə Addım-Addım Montessori Təlimi. Bakı: “Qanun nəşriyyatı”, s. 184

[5] Heynstok, E.(2017). Evdə Montessori Təlimi. Bakı: “Teas Pres Nəşriyyat evi”,s. 124.

[6] Bünyatova,A.R., Əmirova,S.Ə.(2017).Yeni sağlam təhsil texnologiyaların kiçik məktəblilərin idrak və emosional-iradi proseslərinə təsiri, Psixologiya, №3, , s. 79-91.

**İnternet Resursları**

[7] https://montessoriacademy.com.au/montessori-education/principles-of-montessori-education/

[8] https://amshq.org/About-Montessori/What-Is-Montessori/Core-Components-of-Montessori